

Süleyman ABDULLA

## SUYA DÖNMÜŞ XƏYALLAR

Özündə boğulmağın dəniz mövsümüdür, sus,
Açıldı dalğalara qəm gəmisi ümidin.
Göy üzü boz buludlu...
nə ay batır, nə ulduz,
Üfüq boyu sürünür zümzüməsi ümidin.

Lap uzaqda bir avar şappıldadır suları,
Qabarır silueti qayaların baş-başa.
Avarçının əlində qabardır arzuları,
Balıq sevdası salmış xəyalına qarğaşa.

Özünü suya atır tilovun usunda yem,
Ovlanan kim olacaq balıqçımı, balıqmı?
İri əzələsində mürgüləyir dev totem,
Geyindiyi gödəkcə inammı, arxalıqmı?

Üzən üzü yoxluğa durnabalıqlarıdır,
Çoxdan tərk edib göyü islaq könül xoşluğu.
Dəniz xəfif ah çəkib boğazını arıdır,
Şor suları dolduran karmada şit boşluğu.

Qayığın ətrafında dalğalar vurur halay,
Yosunlara imrənən xanı sürüsü olmur.
Yaşaran gözlərinə çökür zülmət laybalay,
Çoxdandı nə nərəsi, nə də kürüsü olmur.

Hərdən dəniz səksənir yorğun avar səsinə,
Ac yuxusu qarışıb yatmış el-aləminin.
Lövbər atmaq istəyir susqun göyərtəsinə,
Miskin qayıq tələsir kölgəsinə gəminin.

Daha dənizlərə də keçmir saqqalın sözü,
Korşalıb kapitanın cod zəhminin ülgücü.
Dənizdir...
əlləridir...
bir də bəxtikəm özü...
Sahilə çəkir ahı yerin cazibə gücü.

Kəndir atır sulara gəmidən matros fiti,
Dartılır göyərtəyə qayıq dolusu əfsus.
Əsnəyib köks ötürür seyrə çıxan suiti,
Özündə boğulmağın dəniz mövsümüdür, sus...

## QƏZA UÇUŞU

Hamıdan küsdüyümtək səndən də küsdüm daha,
Ey könlümün, quşumun, evimin uçduğu yer.
Atdım uçurumlara kölgəmi qurtulmağa,
Ruhum da sənin olsun, cismim qovuşduğu yer.

Bir dərya təşnəlikdə nə xalıq var, nə balıq,
Sulardan quru çıxdı, gömgöy yerin dartısı.
Səndən məsləhət umur canımdakı tənhalıq,
Qorxmursansa, simsar ol, susqun qurd ulartısı.

O səbir dediyindən, varsa, götür bir kasa,
Nəfəsini dərmədən sonsuzluğa lal, atıl.
Gördüyündən səksənib dodağın uçuqlasa,
Ağ yuxuna haram qat, zülmətə halal atıl.

Dilimdən ciyərimə azar gedər çor lağım,
Uçuşları qadağan qanad səsim var, - susdum.
Güvənc yerim deyil, yox, asi əlim-ayağım,
Şəpşəpləri döyənək, əlcəyi qabar, - susdum.

Bir az qəlbim çatlamış, qanadımda sınıq var,
Qum saatından axır ağrılar narın-narın.
Daha bayquş olmağa yetmir xarabalıqlar,
Nəfəs almaq asanmış altında uçqunların.

Bu sərsəri dünyada sayıqlamaq suç deyil,
Olmur, heç cürə olmur yuxuları qatmamaq.
Çırpıram əllərimi ovuc-ovuc Haqq deyib,
Qismətimdi dərgaha dua kimi çatmamaq.
Çırpıldım sərt üzünə...
başdan-başa ağrıdır,
Son hədəf ümidiylə güllə sıxıldığım yer.
Nə Simurğ lələk verdi, nə də ki, ətək, - Xıdır,
Səndən də küsdüm daha, susub yıxıldığım yer.

## SAYIQLAMA

Onda isti idi, çox isti, çox, çox...
Kösövə dönmüşdü rəngi bəxtimin,
Dedin Afrikada belə isti yox...
Sən də yanımdaydın,
yadındadırmı? -
Ayağı yalındı zənci bəxtimin.
Sonra birdən-birə soyudu hava,
Sən məni tərk edib getmişdin onda.
Bilmirdim, söyləyim kimə mərhəba,
Kimə əlvida...
Gələn soyuğamı, gedən sənəmi? -
Hər şeyi tari-mar etmişdin onda...
Sibir soyuğuydu iliyimdəki,
Təkcə yağış yağdı qar əvəzinə.
Həsrətin yanında bu soyuq nə ki...
Yalxa köynəyimi gün aparmışdı,
Yolu donun kəsdi tar əvəzinə.
Səni xatırladım yağış səsinə,
O vaxt da beləcə yağırdı kədər.
Soyuqluq düşmüşdü kölgəsiz tinə,
Arxanca atmağa hirslənəndə,
Qara daş deyilmiş bu kömür qədər.
Ayrılıq səmtinə əsirdi külək,
Sabahın lənəti axşam dönürdü.
Üstümə gəlirdi ac canavartək,
Dünyaya bəyandı yalquzaqlığım,
Gözümdə son çınqı ümid sönürdü.
Əvvəlki istilər indi donurdu,
Buzunu açmazdı istixanalar.
Pöhrə şitilləri, heyif, don vurdu...
Xatirə şəklidir donan qığılcım,
Nə olsun işıqlı çəkilişi var.
İstixanadakı soba soyuqdu,
Çatmadı tüstünün heç hara səsi.
Bəlkə də yolunu kəsən uyuqdu,
Çırpındı, çırpındı əsir küləklər,
Çırpıldı, döyüldü cığara səsi.
Deyən tavan vurur üşütməm yenə,
Çıxıb kəlləçarxa hərarətim, vay!
Od kimi yatağım bumbuz nəm yenə,
Sərsəm yol gəlirəm sənsizliklərə,
Varmı qayıtmağa cəsarətim, vay...
Deyirlər hər gecə sayıqlayıram,
Dəyir kəlmə-kəlmə sözüm dişimə.
Arabir qarışıq nəsə sayıram...
Artıq danışdımsa məni bağışla,
Bilmədən ilişdim özüm dişimə...

## BABASIZ UŞAQLARIN HEKAYƏSİ

Kənddə az uşaqlar babalı idi,
Şum əkən, ot biçən, odun doğrayan.
Dəryazlı, baltalı, yabalı idi,
Kiçiyə təpinən, böyüyü sayan.

Hər yerin özünün qocaları var,
Nəsə bizim kənddə seyrəklik idi.
Nəvə çağırılan lovğa uşaqlar,
Sinəsi qabarıq, burnu dik idi.

Bir azca axmaqdıq, bir azca səydik,
Arxasız uşaqlar qaba adlanır.
Bizim ki yox idi, hardan biləydik,
Əjdaha kişilər baba adlanır.

Babası qəhrəman ərköyün olar,
Bizim canımızda bir qorxu vardı.
Nə olsun, əlində zırpı çomaq var,
Cibində alyanaq alma olardı.

Nağıl quyuların devi bəs hanı,
Düşərdi gözümüz daha dərinə.
Dev baba cibindən "qızıl" almanı,
Çıxarıb verərdi nəvələrinə.

Yoxdu kimsənəmiz söyləməyə can,
Bizə konfet alan, pul verən kimdi?
Filanın babası filan-beşməkan,
Bizim ataların adı yetimdi.
Qımqıma söylərdi qadınlar hər gün,
Bayatı çəkərdi: - gedənim gələr.
Onda anlamazdıq niyə, nə üçün,
Hitleri qarğayır qarı nənələr?!

Böyüklər bilirdi kənddə kimdi kim,
Nəhəng saydığımız əslində cırmış.
Fərari deyilən söyəndə bildim,
Atam atasını xatırlamırmış.

Bizim də başımız çıxarmış sirdən,
Zırpı kişilərin çoxu "qız" imiş.
Biz uşaq ağlıyla anladıq birdən,
Elə ər nənəmiz babamız imiş.

Qanmağa başladıq biz düz-əməlli,
Dünyanın qan daman ağızı varmış.
Yarımçıq, yaralı, sağ dönən bəlli,
Kimlərin dəlilik kağızı varmış.

Sevərdim nənəmi yaxşı olanda,
Elə o özü də sevərdi məni.
Acığı tutanda, səbri dolanda,
Söyüb suvayardı müharibəni.

Mənim baba adlı getmiş kimsənəm,
Dönməyən yollarda bir qəm vardı da...
Kişi işlərinə qoşardı nənəm,
İşləyər, deyinər, dalaşardı da.

İndi atam da yox...
Bəxtdi, nə qəm ki,
Bir ömür tumara, sığala acam.
Mən özüm özümə söz vermişəm ki,
Nəvəmə ən yaxşı baba olacam.

## PORTRET

Ümid dənizində batdı qayığım,
Dalğanın üstündə kürək şəkli çək.
Ustufca fırcala, ay pəssam qağa,
Rəngləri qarışdır, görək...şəkli çək!

Hər yerin qəlbitox, gözüacı var,
Kiməsə gen dünya mənə olub dar.
Mənim yıxıldığım deyildi çinar,
Bu parkın küncünə çörək şəkli çək.

Yel nədir başımdan fikir dağıda,
Dost məni tanımaz, elə yağı da...
Tərgitdim kiməsə inanmağı da,
Gərək şübhəli çək, gərək şəkli çək.

Canımdı çəkməyən sözün çiyini,
Havadan bilirəm dərdin iyini.
Mən çoxdan itirdim qəlb dediyini,
Bacarsan sinəmə ürək şəkli çək.

## SUSMAQ...

Susmaq, ağrılara üz verməməkdir,
Susmaq, - acıların dadını danmaq...
Sən ki, nə "Mətin"sən, nə də "İradə",
Yaraşmaz adama adını danmaq.

Canın inləyirsə, dilini ud bil,
Qoyma çıxarmağa səs cıqqırını.
Bilirsən, əzab da ömürlük deyil,
Tablaş ölənəcən, kəs cıqqırını.

Tamamsa qurtardı, saatı yüz qur,
Zamana güvənən saatsazdı xam.
Dünyanın tutmağa qulpu ha yoxdur,
Beşəlli yapışmaq olmur ki, adam.

Üzü bəlalara yol varmaqdı Haqq,
Tufandan ötüşən yelə sığınmaz.
Təsəlli olmayıb dərdə, ağlamaq,
Adam göz yaşına belə sığınmaz.

Hamı öz vaxtında yetişir sona,
Ya qəflə-qatırda, ya atlı getsin.
Tələsən-ərinən çatır bir sona,
Uzağı, uzağı həyatdı, - getsin.

Hər zaman özünə çıxış yolu var,
Dərdinlə qol-boyun kef şəkli çəkdir.
Haray qoparmaqla keçməz dərd-azar,
Susmaq, - ağrılara üz verməməkdir.